# Daha bir şəhid adına bulaq açılıb





Lənkəran şəhərində şəhid baş leytenant Abdullazadə Həsənağa Şakir oğlunun adına bulağın açılışı olub.

Yüksək ixtisaslı hərbçi olmaq arzusu ilə əvvəlcə Naxçıvanski adına hərbi liseyi, sonra Heydər Əliyev adına Ali Hərbi Akademiyanı bitirən H.Abdullazadə Milli Ordu sıralarında ləyaqətlə xidmət edərək taqım komandiri, bölük komandiri və tabor qərargahının rəisi vəzifələrinə qədər yüksəlib.

Qəlbi vətən məhəbbəti ilə döyünən zabit Vətən müharibəsi günlərində Kəlbəcər, Murov və Ağdərə istiqamətində gedən döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalıb. Bakıda II Fəxri xiyabanda dəfn edilən şəhid zabit Prezidentin müvafiq sərəncamları ilə “Vətən uğrunda”, “Kəlbəcərin azad olunması uğrunda” medalları və “Rəşadət” ordeni ilə təltif olunub.

Açılış mərasimində Lənkəran ŞİH başçısı Taleh Qaraşov, Milli Məclisin deputatı Rüfət Quliyev, Müdafiə Nazirliyinin nümayəndəsi, polkovnik-leytenant Rüfət Məmmədov, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edənlər 44 günlük Vətən müharibəsində silahlı qüvvələrimizin əsgər və zabitlərinin Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə misilsiz şücaət göstərdiklərini söyləyiblər. Qeyd olunub ki, şəhid və qazilərin Vətən qarşısında xidmətləri dövlət və xalqımız tərəfindən yüksək dəyərləndirilir, o cümlədən lənkəranlılar torpaqlarımızın azad olunmasında övladlarının, qardaşlarının, atalarının, doğmalarının göstərdikləri əvəzsiz xidmətləri ilə qürur duyurlar.

***S.CAVADOV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2021.- 7 sentyabr.- S.7.